

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 4 fevral 2026-cı il №9 (3011) https://mod.gov.az Qiymətı 30 qəpik


## 2 Fevral - Gənclər Günü münasibətilə Azərbaycan gənclərinə

Əziz gənclər!

Sizi 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, yüksək əhval-ruhiyyə və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 30 il əvvəl gənclərimizin geniş və açıq müzakirə tribunasına çevrilmiş ilk ümumrespublika gənclər forumunun keçirildiyi günün ölkəmizdə Gənclər Günü kimi qeyd olunması ənənəsi və bu cür forumların müntəzəm təşkili sübut edir ki, gənclər siyasəti dövlətimizin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir. Ötən onilliklər ərzində icra olunan dövlət proqramları nəticəsində gənclərin fərdi inkişafı və ictimai-siyasi fəallığının artması üçün əlverişli zəmin yaranmış və dövlət quruculuğunda onların rolu daha da güclənmişdir.

Sevindirici haldır ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizə dərindən bağlı olmaqla yanaşı, həm də müasir dünyanın inkişaf tendensiyası ilə ayaqlaşa bilən intellektual gənc nəsil formalaşmışdır. Sizlər bu gün iqtisadiyyatdan elm və mədəniyyətə qədər bütün sahələrdə dövlətimizin qüdrətini artıran bir qüvvəsiniz. Vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, zəngin mədəni irsimizin qorunması və beynəlxalq aləmdə tanıdılması yolunda atdığınız hər addım xalqımızın ümumbəşəri ideallara sadiqliyinin ifadəsidir.

Dövlətimizin yaratdığı hərtərəfli şəraitin və aşıladığı vətənpərvərlik ruhunun nəticəsidir ki, Azərbaycan gəncliyi üçün böyük imtahan olan 44 günlük Vətən müharibəsində gənclərimiz misilsiz rəşadət göstərdilər. 30 illik işğala son qoyaraq xalqımızın Qələbə əzmini bütün dünyaya nümayiş etdirən qəhrəmanlarımızın əksəriyyətini məhz gənclər təşkil etmişdir. Bu Zəfər salnaməsi Azərbaycan gəncinin Vətənə sonsuz sevgisinin və sarsılmaz iradəsinin əbədi rəmzidir.

Əminəm ki, müasir tariximizin yeni intibah dövründə də Azərbaycan gəncliyi öz innovativ potensialı və yaradıcı enerjisi ilə dövlətimizin gələcək inkişafına layiqli töhfələr verəcəkdir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 fevral 2026-cı il

## Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib.***

Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan qarşılayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 2-də Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü olub.

Söhbət zamanı Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin strateji tərəfdaşlığa əsaslandığı vurğulanaraq, ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə inkişafından məmnunluq ifadə olunub, münasibətlərimizin genişlənməsində hər iki prezidentin Azərbaycana və BƏƏ-yə qarşılıqlı səfərlərinin, görüşlərinin önəmi qeyd edilib.

Görüşdə Əbu-Dabidə Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı qüvvələri arasında keçirilən "Sülh Qalxanı-2026" birgə əməliyyat-taktiki təliminin əhəmiyyətinə toxunulub, bu təlimlərin iki ölkənin Silahlı Qüvvələri arasında operativ hərbi uyğunluğun inkişafına töhfə verəcəyinə əminlik bildirilib və bunun gələcəkdə də davam etdirilməsinin önəmi vurğulanıb.

**(Ardı 2-ci səhifədə)**

## Azərbaycan Prezidenti Gənclər Günü ilə bağlı paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev sosial media hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir: "Biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik!"

## Birinci vitse-prezident Mehriban Əliyeva Gənclər Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında Gənclər Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əminəm ki, Azərbaycan gəncləri öz uğurları, qələbə və nailiyyətləri ilə xalqımızı daim sevindirəcək və ölkəmizin inkişafına layiqli töhfələr verəcəklər".

## Müasir hərbi təhsil sistemi qüdrətli ordunun sütunudur

Müstəqil, müasir dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev hər zaman ən mürəkkəb və çətin vəziyyətlərdə düzgün yolu tapmağı bacarırdı. Azərbaycanlı olması ilə fəxr edən Ümummilli Lider bütün ömrünü xalqımızın maddi rifah halının yaxşılaşdırılmasına, güc və qüvvəsini isə dövlətimizin quruculuğuna sərf etmişdir. Ölkəmizdə hakimiyyətə gəldiyi ilk günlərdən Ümummilli Lider Heydər Əliyevi düşündürən əsas məqsədlərdən biri də ordu quruculuğu məsələsi olmuşdur. Ordu quruculuğunu şərtləndirən əsas amillərdən biri isə onun peşəkar hərbçi kadrları ilə komplektləşdirilməsi idi.

Müstəqilliyimiz bərpa edildikdən sonra bütün sahələrdə olduğu kimi, ordu quruculuğu, o cümlədən hərbi təhsil sahəsində də geniş islahatlar aparılmağa başlanıldı. Hərbi təhsil prosesi yeni proqramlar əsasında davam etdirildi, hərbçi kadrların hazırlığı üzrə fəaliyyətlər daha da təkmilləşdirildi. Son nəticədə isə Ümummilli Lider istəyinə, amalına nail oldu, güclü dövlətin, qüdrətli bir ordunun təməlini qoydu.

**(Ardı 4-cü səhifədə)**

## Ötən ay 374 mina və 1364 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2026-cı ilin yanvar ayında minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 337, tank əleyhinə 37 mina və 1364 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.




Həmçinin 1738,3 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri





(Əvvəli 1-ci səhifədə)

Dövlət başçıları əlaqələrimizin perspektivlərinə və gələcək təmaslara dair fikir mübadiləsi aparıblar.

Sonra Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənəd imzalanıb.

Qeyd edək ki, səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.



Azərbaycan və BƏƏ prezidentləri bu sənədlərin ölkələrimiz arasında əlaqələrin daha da inkişafına təkan verəcəyinə əminliklərini bildiriblər.

Söhbət zamanı Bakı ilə Əbu-Dabi arasında qardaşlaşma münasibətlərinin yaradılması məsələləri də qeyd edilib.

* * *

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əbu-Dabi şəhərində Müsəlman Ağsaqqalları Şurasının baş katibi Məhəmməd Əbdülsalam ilə görüşü olub.

Məhəmməd Əbdülsalam Azərbaycana səfərlərini və dövlətimizin başçısı ilə görüşlərini böyük məmnunluqla xatırlayıb. O, Prezident İlham Əliyevi "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi münasibətilə bir daha təbrik edib.

Prezident İlham Əliyev təbrikə və yüksək mükafata görə minnətdarlığını bildirərək, Zayed Fondunun fəaliyyətini, xüsusilə Birləşmiş Ərəb Əmirliklərinin qurucusu Şeyx Zayed bin Sultan Al Nəhyanın humanitar irsinin və bəşəri dəyərlərinin dünyada təşviq edilməsində oynadığı mühüm rolu yüksək qiymətləndirib.

Azərbaycan Prezidentinin bu mükafata layiq görülməsi, həmçinin Roma Papası XIV Leonun və Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyibin Azərbaycan Prezidentinin sülhün bərqərar olunması istiqamətində fəaliyyətinə verdikləri qiymətin təcəssümü kimi dəyərləndirilib.

* * *

Fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən "Sülh Qalxanı-2026" birgə əməliyyat-taktiki təlimini izləyiblər.

Yaşayış məntəqəsi, dağlıq ərazi və dəniz mühitində keçirilən birgə təlimdə qanunsuz silahlı dəstələrin aşkarlanaraq zərərsizləşdirilməsi, ələ keçirilmiş gəmi üzərində nəzarətin bərpası, terrorçu ünsürlərin zərərsizləşdirilməsi və girovların azad edilməsi, yaralıların təxliyəsi, yaşayış məntəqəsində ictimai təhlükəsizliyə təhdid yaradan iğtişaş və sabotaj xarakterli fəaliyyətlərin qarşısının alınması, eləcə də yanğınsöndürmə fəaliyyətləri üzrə tapşırıqlar yerinə yetirilib.

Qeyd edək ki, təlimin əsas məqsədi ölkələrimizin hərbi kontingentinin antiterror əməliyyatları üzrə peşə bacarıqlarını təkmilləşdirmək, dayanıqlı sülhün təmin olunmasına töhfə vermək və qarşılıqlı təcrübə mübadiləsi aparmaqdır.

(Ardı 3-cü səhifədə)

















# Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri







(Əvvəli 2-ci səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanla görüşüb.

Tərəflər ABŞ Prezidenti Donald Trampın ev sahibliyi və şahidliyi ilə baş tutan Vaşinqton Sülh Sammitinin nəticələrinin həyata keçirilməsi istiqamətində əldə olunan irəliləyişi alqışlayıblar. Onlar Ermənistan və Azərbaycan arasında normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanmasının vacibliyini vurğulayıblar.

Tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Tərəflər ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Onlar, həmçinin vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərlərini alqışlayıb və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinin zəruriliyi barədə razılığa gəliblər.

Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan TRIPP və digər bağlantı layihələrinin həyata keçirilməsini müzakirə ediblər.

Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri iki ölkə arasında sülhün və sabitliyin daha da möhkəmləndirilməsi istiqamətində səyləri davam etdirməyə hazır olduqlarını bir daha təsdiqləyib, ikitərəfli normallaşma prosesinə dəstək məqsədilə təmasları davam etdirmək barədə razılığa gəliblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan və BƏƏ arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib








*Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbər heyəti Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) işgüzar səfərdədir.*



Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində müdafiə naziri general-polkovnik Zakir Həsənov ilə BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Məhəmməd Bin Mübarək Əl-Fadhel Əl-Məzrui arasında ikitərəfli görüş keçirilib.

Görüşdə Azərbaycan-BƏƏ arasında hərbi sahədə əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib. Birgə təlimlərin və qarşılıqlı səfərlərin ölkələrimiz arasında hərbi əlaqələrin genişlənməsinə töhfə verdiyi qeyd edilib.

Tərəflər, hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Həmçinin müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev BƏƏ-nin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant İsa Səif bin Ablan əl-Məzrui ilə görüşüb.

Baş Qərargah rəisləri, hər iki ölkənin hərbi qulluqçularının iştirakı ilə keçirilən "Sülh Qalxanı-2026" birgə təliminin təcrübə mübadiləsinin artırılması baxımından vacibliyini qeyd edib, eləcə də bir sıra digər məsələlər ətrafında danışıblar.

Daha sonra, Müdafiə Nazirliyinin rəhbər heyəti "Sülh Qalxanı-2026" birgə əməliyyat-taktiki təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib.

Qeyd edək ki, fevralın 3-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan iki ölkənin Silahlı Qüvvələrinin hərbi qulluqçularının iştirakı ilə Əbu-Dabidə keçirilən birgə əməliyyat-taktiki təlimini izləyiblər.







# Müasir hərbi təhsil sistemi qüdrətli ordunun sütunudur




## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

*"Bizə hazırlıqlı hərbçilər lazımdır. Bütün sahələrdə yeni gənc kadrların yetişdirilməsi məsələlərinə böyük diqqət göstərilir. Azərbaycan uğurla inkişaf edir. Ölkəmizdə bütün sahələr inkişaf edir. Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır".*

**(Əvvəli 1-ci səhifədə)**

Məhz buna görə də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük ehtiramını, hörmətini və sevgisini qazanıb. Bu dahi şəxsiyyətin adı tariximizin səhifələrinə böyük hərflərlə yazılıb. Bütün fəaliyyəti dövründə Heydər Əliyev öz taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşmış və onların xidmətinə yüksək dəyər verərək demişdi: "Bütün peşələr şərəflidir, amma Vətəni qorumaq ən şərəfli peşədir".

Ordu quruculuğu istiqamətində Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü islahatlar Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən də uğurla davam etdirildi. Ölkəmizin iqtisadi qüdrəti artdıqca Silahlı Qüvvələrin, o cümlədən Azərbaycan Ordusunun da maddi-texniki bazası daha da möhkəmləndirildi. Həyata keçirilən islahatlar çərçivəsində bütün xüsusi təyinatlı təhsil müəssisələri də ən müasir tələblər səviyyəsində yenidən quruldu.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatlarına cavab olaraq başlanan İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusu tarixi Zəfər qazandı. Qazanılan bu tarixi Zəfərdən sonra Türkiyə Respublikası Silahlı Qüvvələri modelinin Azərbaycan Ordusunda tətbiqi istiqamətində islahatlar aparılmağa başlandı. Bundan əlavə, mütəmadi olaraq keçirilən təlimlər bölmələrin döyüş qabiliyyətinin, eyni zamanda, şəxsi heyətin peşəkarlığının artırılmasına müsbət təsir göstərdi.

Qoşunların imkan və qabiliyyətlərinin yüksəldilməsi, əməliyyat və döyüş hazırlığı, kəşfiyyat xidməti, həmçinin Azərbaycan Ordusunun peşəkar kadrlarla komplektləşdirilməsi sahəsində uğurlu nailiyyətlər əldə olundu. Aparılan islahatlar çərçivəsində dövlətimizin başçısı tərəfindən 2022-ci il martın 5-də Milli Müdafiə Universitetinin yaradılması haqqında Fərman imzalandı. Yeni struktur Azərbaycanda hərbi təhsil və tədris prosesində bir çox yenilikləri əhatə etdi. Yaradılan bu struktur tədrisdə müəyyən yenilikləri əhatə etdi, Azərbaycanda hərbi təhsil sistemini koordinasiya etməyə başladı.

Bu gün də ordumuzun peşəkar kadrlarla komplektləşdirilməsi prioritet məsələlərdəndir. Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi İnstitut əsas hərbi təhsil müəssisəsi olaraq ordumuza bu sahə üzrə əvəzsiz töhfələr verməkdədir. Bu hərbi təhsil ocağında gələcəyin zabiti olacaq kursantlar bakalavr səviyyəsində təhsil alır, "leytenant" rütbəsi ilə Azərbaycan Ordusunun qoşun və qüvvə növlərində hərbi xidmətə başlayırlar.

Sevindirici məqamlardan biri də ondan ibarətdir ki, uzun müddət fasilədən sonra 2025-2026-cı tədris ilində Heydər Əliyev adına Hərbi İnstituta qadın kursantlar da qəbul edilib. Qalib Azərbaycan Ordusunun sıralarında qadınların zabit adını daşımaq imkanına sahib olmaları dövlətimizin inkişafı və cəmiyyətimizin tərəqqisi baxımından qürurverici haldır. Bunu Azərbaycan Ordusunda gender bərabərliyi prinsiplərinin tətbiqində tarixi mərhələ hesab etmək olar.

Tarix boyu Azərbaycan qadını dövlətçiliyimizin möhkəmləndirilməsi, xalqımızın milli-mənəvi dəyərlərinin qorunması və Vətənin müdafiəsi işində fəal iştirak edib. Dövlət müstəqilliyimiz yenidən bərpa edildikdən sonra Azərbaycan qadınının cəmiyyətdə əvəzsiz rolu bir daha təsdiqləndi. Mərhəməti, humanistliyi, xeyirxahlığı və vətənpərvərliyi ilə fərqlənən Azərbaycan qadını milli dövlət quruculuğu prosesi ilə yanaşı, ordu quruculuğu prosesində də yaxından iştirak edir. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda gedən döyüşlərdə qadınlarımız da iştirak edib, fədakarlıq nümunələri göstəriblər.

Bu gün Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən, həmçinin mülki işlərdə çalışan qadınlarımız Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirirlər.

Heydər Əliyev adına Hərbi İnstitutda təhsil və tədris prosesi, o cümlədən qadın kursantların gündəlik fəaliyyəti, həmçinin sosial-məişət şəraiti ilə yaxından tanış olmaq məqsədilə tədris ocağına yollandıq. Əvvəlcə Hərbi institutun zabiti polkovnik-leytenant Vüqar Məmmədovla həmsöhbət olduq. Zabit təhsil müəssisəsi haqqında məlumat verərək qeyd etdi ki, Hərbi institutu bu günədək bitirən yüzlərlə, minlərlə gənc "leytenant" hərbi rütbəsində ordu sıralarında xidmətə başlayıb, sonralar torpaqlarımızın azadlığı və suverenliyi uğrunda gedən döyüş əməliyyatlarında böyük hünər və rəşadət nümunələri göstərib.

"Biz bu gün burada təhsil alan kursantlara dünənki qəhrəmanlarımızın sabahkı davamçıları kimi baxırıq. Ona görə də təcrübəli, eyni zamanda, bilikli zabit və professor-müəllim heyəti tərəfindən kursantlara hərbi biliklər aşılanır. Tədris prosesi yeniləşmiş proqramlar, yeni metodiki yanaşmalar və qazanılan təcrübələr nəzərə alınmaqla keçirilir. Uzun və şərəfli yolun yolçusu olan kursantlara Hərbi institutda hərbi biliklərlə yanaşı, tariximiz də öyrədilir. Əminik ki, onlar burada öyrəndiklərini gələcək xidmət yerlərində tətbiq edəcək, Azərbaycan Ordusunun qüdrətlənməsi naminə əllərindən gələni əsirgəməyəcəklər".



### "Şəhidlərimizin və hərbçilərimizin keçdiyi şərəfli döyüş yolu hər birimiz üçün örnəkdir"

Zabitlə söhbətləşə-söhbətləşə tədris korpuslarına doğru irəlilədik. Hərbi institutun ərazisində, tədris ocağının Vətən müharibəsində şəhid olan hərbi qulluqçuların xatirəsinə həsr olunmuş abidə qarşısında düzülmüş kursantlar diqqətimizi çəkdi. Mayor Amil Babayev kursantlara Hərbi institutun şəhid olmuş hərbi qulluqçuları barədə məlumat verirdi.

"27 sentyabr 2020-ci ildə başlanan İkinci Qarabağ müharibəsində Heydər Əliyev adına Hərbi İnstitutun 4-cü kurs kursantları və zabit-gizir heyəti də iştirak edib. Torpaqlarımızın azad olunması uğrunda gedən döyüş əməliyyatlarında Hərbi institutun hərbi qulluqçularından 10 nəfər şəhid olub, 28 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 400 nəfərdən çoxu isə göstərdikləri şücaətə görə orden və medallarla təltif olunub. Əziz kursantlar, şəhidlərimizin, hərbçilərimizin keçdiyi şərəfli döyüş yolu bu gün hər birimiz üçün örnək olmalıdır. Biz onların qəhrəmanlıq yolunu davam etdirməliyik. Bunun üçün də burada sizlər üçün yaradılan hərtərəfli imkanları yüksək səviyyədə dəyərləndirməli, tədris olunan hərbi bilikləri daha dərindən mənimsəməlisiniz".

Kursant Nəzrin Manafova qeyd etdi ki, öz qanları ilə tarix yazanların davamçısı olmaları ilə qürur duyurlar. "Bu gün biz burada təhsil alaraq gələcəyin zabiti kimi formalaşırıq. Bizə hərbi biliklərlə yanaşı, döyüşlərdə iştirak etmiş, qəhrəmanlıq göstərmiş hərbi qulluqçularımızın həyat və döyüş yolu aşılanır. Hər birimiz onların keçdiyi bu şərəfli yolu özümüzə mayak bilirik".



### "Məlumatların ötürülməsi dayanıqlı və fasiləsiz rabitənin mövcudluğundan asılıdır"

Sonra kursantların təhsil prosesi ilə daha yaxından tanış olmaq məqsədilə tədris korpuslarına yollandıq. Kursantlar sinif otağında rabitə avadanlıqlarının taktiki-texniki xüsusiyyətlərini öyrənirdilər. Həmsöhbət olduğumuz kursantlar Mehdi Tağızadə, İlkin Həsənov, Elmir Quliyev və digərləri qeyd etdilər ki, təcrübəli müəllimlərin köməyi ilə rabitə qurğu və avadanlıqlarının sirlərini dərindən mənimsəyirlər.

"Əməliyyatlar zamanı məlumatların operativ şəkildə ötürülməsi dayanıqlı və fasiləsiz rabitənin mövcudluğundan asılıdır. Əgər rabitə sistemində nasazlıq yaranarsa, bu, uğurun qazanılmasına mane ola bilər. Buna görə də müəllimlərimiz tərəfindən keçirilən dərsləri dərindən mənimsəməyə çalışırıq ki, baş verə biləcək hər hansı bir çətinlik zamanı onu dərhal aradan qaldıra bilək".

**(Ardı 5-ci səhifədə)**







# Müasir hərbi təhsil sistemi qüdrətli ordunun sütunudur

(Əvvəli 4-cü səhifədə)

### "Silahdan düzgün istifadə etmək və onun təyinatını bilmək vacib şərtlərdəndir"

Rabitə hazırlığı ilə yanaşı, atəş hazırlığı dərsləri də kursantlar üçün vacib məşğələlərdən sayılır. Atəş hazırlığı sinfində kursantlar kompüterli atış trenajorunda tapançadan və avtomatdan nişanalma bacarıqlarını, sürətli atəş açma vərdişlərini təkmilləşdirir, hərəkətsiz hədəflərə atış məşqləri həyata keçirirdilər. Kursantlar Nasir Əlizadə, Ülviyyə Quliyeva, Günel Hüseynli, Fəxriyyə Səfərova və digərləri bildirdilər ki, atəş hazırlığı dərslərinə böyük həvəs göstərirlər.

"Nəzəri və praktiki məşğələlər təhsilimizin əsas hissələrindən biridir. Silahdan düzgün istifadə etmək və onun təyinatını bilmək vacib şərtlərdəndir. Bu dərslər sayəsində biz silahların təyinatını, döyüş və texniki xassələrini, sökülüb-yığılmasını, tətbiqini, istismar qaydalarını, dəqiq nişan almağı öyrənirik. Tək amalımız bizə tədris olunan hərbi bilik və vərdişlərə dərindən yiyələnmək, göstərilən etimadı doğrultmaqdır".

Kursantların trenajor otağındakı fəaliyyətlərini izlədikcə onların nə qədər həvəsli olduqlarını gördük və əmin olduq ki, keçirilən dərslər kursantların nizam-intizamlı, silahlardan məharətlə istifadə etməyi bacaran, yüksək döyüş hazırlıqlı hərbi qulluqçu kimi formalaşmasında mühüm rol oynayır.





### Hərbi xidmətlə ilk tanışlıq sırada olur

Hərbi qulluqçunun silahdan məharətlə istifadə etməyi bacarması ilə yanaşı, onun nizam-intizamı da başlıca şərtdir. Deyildiyi kimi, nizam-intizam sıradan başlanır. Hərbi xidmətlə ilk tanışlıq da məhz sırada olur. Ordu sıralarına daxil olan hər kəsə sıranın müqəddəsliyi izah olunur. Nizam-intizamın, verilən əmr və tapşırıqlara sözsüz əməl etməyin, eləcə də digər intizam xarakterli davranışların əsası məhz sıra hazırlığı məşğələlərində qoyulur.

Azərbaycan Ordusunun bölmələrində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində bu məşğələlər Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Sıra Nizamnaməsinə uyğun olaraq keçirilir. Hərbi institutun sıra meydanında kursantlar taqım komandirinin rəhbərliyi altında sıra hazırlığı ilə məşğul olurdular. Onlar sıra hərəkətlərini və yerişini, əsgəri salamlaşma qaydalarını, sıra hazırlığına dair tələbləri, yuxarı rəislərə yaxınlaşma və digər elementləri yerinə yetirirdilər. Verilən komandaları cəld və nizamlı şəkildə icra etmələri bizdə xoş ovqat yaradırdı.

Kursantlardan Asya Abbasova, Xəyal Hüseynov, Samirə Bayramova, Asif Abdinov, Nərgiz Səfərli, Murad Əlizadə və digərləri qeyd etdilər ki, sıra hazırlığı gündəlik fəaliyyətlərinin tərkib hissələrindən biridir. "Keçirilən bütün məşğələlərdə yeni bilikləri həvəslə öyrənirik. Digər məşğələlərdə olduğu kimi, sıra hazırlığı məşğələlərində də bütün gücümüzü səfərbər edərək sıra hərəkətlərini düzgün yerinə yetirməyə çalışır, nizamlı addımlamağı və digər elementləri məşq edirik. Çünki bizim bütün fəaliyyətlərimiz sıra ilə həyata keçirilir - səhər baxışından axşam yoxlamasınadək".

### "Analarımızın bişirdiyi yeməklərin dadını burada da hiss edirik"

Kursantların digər hazırlıqları ilə yanaşı, onların məişət şəraitini də mütləq vurğulamalıyıq. Çünki döyüş və mənəvi-psixoloji hazırlıq kursantların məişət şəraiti ilə sıx bağlıdır. Hərbi institutun yeməkxanası müasir tələblərə uyğun avadanlıqlarla təmin edilib. Tədris ocağının şəxsi heyətinin bütün fəaliyyəti və təminatı kimi, sağlam və yüksək kalorili yeməklərlə qidalanması da ciddi nəzarətdə saxlanılır.

Bişirilən yeməklərin keyfiyyətindən, mətbəxin və zalın təmizliyindən tutmuş hər bir işçinin gördüyü iş daim diqqətdə saxlanılır. Elə yeməkxanada olduğumuz zaman gördüklərimiz dediklərimizin əyani sübutu oldu. Yeməkxanada kursantların fikirlərini də öyrəndik. Hər biri bişirilən xörəklərin dadından və keyfiyyətindən ağızdolusu danışdı.





Onlardan Aysu Ruşanova, Nərmin Əsgərova, İsa Mehdiyev, Amin Əlizadə və digərləri dedilər ki, burada bişirilən xörəklərin dadına söz ola bilməz: "Hərbi instituta qəbul olunmamışdan əvvəl buranın yeməklərinin necə olacağı bizi çox düşündürürdü. Görəsən, nə cür xörəklər veriləcək, anamızın bişirdiyi xörəklərin dadını, tamını verəcəkmi? Artıq bu gün tam əminliklə deyə bilərik ki, analarımızın bişirdiyi yeməklərin tamını burada da hiss edirik".

### "Aslanın erkəyi, dişisi olmaz"

Hərbi institutun kursantlarının gündəlik fəaliyyətindən danışarkən onların fiziki hazırlıq saatlarını da mütləq qeyd etməliyik. Günün nizam qaydalarına uyğun olaraq keçirilən fiziki hazırlıq məşğələləri kursantların sağlamlıqlarının möhkəmləndirilməsinə mühüm təsir göstərir. Nə qədər fiziki hazırlıqla məşğul olarsansa, bir o qədər möhkəm, güclü və sağlam olarsan, verilmiş tapşırıqları daha çevik və cəld yerinə yetirərsən.

Hərbi institutda keçirilən fiziki hazırlıq məşğələlərində məhz bu amillər əsas götürülür. Tədris ocağında kursantların fiziki inkişafı üçün müxtəlif idman dərnəkləri də fəaliyyət göstərir. Burada kursantlar idmanın cüdo, karate, güləş, kikboksinq və digər növləri ilə məşğul olurlar.

İlk həmsöhbətimiz kursant Emilya Piriyeva oldu. Əslən Zaqatala rayonundan olan kursantımız 2025-ci ildə Ulu Öndər Heydər Əliyevin xatirəsinə həsr olunan yarışda idmanın Azərbaycan Qocyu-ryu Okinava karate-do və kobudo-kempo növü üzrə birinci yerə layiq görülüb.

"Hələ uşaq yaşlarımdan idmana marağım olub. Hərbi instituta qəbul olduqdan sonra burada idmanla məşğul olmağımız üçün yaradılan yüksək şəraiti gördüm. İstər Hərbi institutun rəhbərliyi, istərsə də müəllimlərimiz bizə yüksək diqqət göstərir, qayğılarımızla yaxından maraqlanırlar. Belə şərait mənəvi-psixoloji hazırlığımıza müsbət təsir göstərir. Yüksək əhvali-ruhiyyədə xidmət edir, gələcəyin bacarıqlı zabitləri kimi formalaşmağa çalışırıq", - kursant dedi.

Növbəti həmsöhbətimiz güləş üzrə respublika turnirinin qalibi kursant Vüsal Cəfərli oldu. O, da idmana olan həvəsindən, kursantlar arasında mövcud olan sağlam mühitdən, Hərbi institutda yaradılan şəraitdən məmnunluqla danışdı. Kursantlar Şəfa Abbasova, Nəzrin Vəlicanova, Aytən Ağayeva, Mirnuru Ələkbərli, Fərid Nəbiyev və digərləri bacarıqlı zabit olmaq üçün hərbi biliklərlə yanaşı, fiziki gücün, çevikliyin və iradənin vacib olduğunuda vurğuladılar. Onların fikrincə, bu keyfiyyətlərə mütəmadi idmanla məşğul olmaqla yiyələnmək mümkündür.

"İdman sağlamlıqdır. İdmanla məşğul olduqdan sonra insan gümrahlaşır, əhvali-ruhiyyəsi yüksəlir. İdman həm də insanı zərərli vərdişlərdən uzaq tutur. Gələcəyin zabitləri olan biz kursantlar üçün isə idman daha vacibdir. Buna görə də bu təhsil ocağında bizim üçün yaradılan imkanlardan istifadə edərək fiziki göstəricilərimizi artırmalı, sağlam və güclü olmalıyıq. Gördüyünüz kimi, burada komandanlıq tərəfindən idmanla məşğul olmağımız üçün hər cür şərait yaradılıb. Bu da bizi idmana daha çox həvəsləndirir".



Heydər Əliyev adına Hərbi İnstitutda olduğumuz müddət ərzində gördüklərimiz, şəxsi heyət üçün yaradılan müasir şərait əminliklə deməyə əsas verir ki, burada təhsil alan kursantlar hərbin incəliklərinə dərindən yiyələnərək gələcəyin savadlı, bacarıqlı və vətənpərvər hərbçiləri kimi formalaşacaq, Mübarizlərin, Çingizlərin, Muradların, Poladların və digər qəhrəmanlarımızın layiqli davamçıları olacaqlar.

Yaradıcısı və qurucusu xalqımızın Ümummilli Lideri Heydər Əliyev olan Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da dünyanın ən güclü orduları sırasında öncül mövqeyini qoruyub saxlayacaqdır. İnanırıq ki, qüdrətli və qalib ordumuzun daha da inkişafı naminə hərbi qulluqçularımız, o cümlədən kursantlarımız bilik və bacarıqlarını durmadan artıracaqlar.

**Baş leytenant Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**gizir**
**Mövlan NƏSİRZADƏNİNDİR**









# 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər təşkil olunub

*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi plana əsasən, 2 Fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.*



Müdafiə Nazirliyi xəbər verir ki, tədbirlərdə Ümummilli Lider Heydər Əliyev və Vətən uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Çıxış edənlər Azərbaycanda Gənclər Gününün təntənəli şəkildə qeyd olunduğunu bildirərək, dövlət gənclər siyasətinin əsasının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu vurğulayıblar.




Qeyd olunub ki, bu siyasət hazırda Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bayram tədbirləri çərçivəsində Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, eləcə də rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri şəxsi heyət qarşısında maraqlı mədəni proqramlarla çıxış ediblər.

* * *

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə üzvlər arasında 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr edilmiş stolüstü tennis yarışı keçirildi. Yarış Bakı şəhərində Şüa idman kompleksinin bazasında baş tutdu. 8 qrupda 24 nəfər idmançı mübarizəyə qoşuldu. Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova əvvəlcə yarış iştirakçılarını salamladı və hər bir iştirakçıya qarşıdakı mübarizədə uğurlar arzuladı.

Yarışın rəhbəri Aygün Məmmədova bildirdi ki, Mərkəzi Ordu İdman Klubunun üzvü idman ustası Əliverdi Şahgəldiyev birinciliyin baş hakimidir. O, stolüstü tennis oyununun qaydaları ilə idmançıları tanış etdi. Qrupların ardıcıl şəkildə mübarizəyə başlanması barədə püşkatma keçirildi.

Baş hakim Əliverdi Şahgəldiyevin komandası ilə idmançılar stolüstü tennis masalarının arxasında yerlərini tutdular. Baş hakimin "Yarışa başla!" komandasından sonra mübarizə geniş xarakter aldı. 1/8 mərhələyə düşmək üçün idmançılar arasında gərginlik artırdı. Birincilikdə kişi idmançılarla bərabər, 2 qadın idmançı da mübarizə aparırdı. Yeganə Əlizadə ilk andan üstünlüyü ələ aldı. Onun peşəkar tennisçi olduğunu oyun ərəfəsində sona qədər apardığı mübarizə də təsdiqlədi.

Birinci mərhələdə Zaur Nadirov, Niyaz Zeynalov və Yavər Ağayev eyni xal topladıqları üçün onların yenidən mübarizəni davam etdirilməsi barədə baş hakim qərar qəbul etdi. Zaur Nadirov üçlük arasında birinciliyini qazandı.




1/4 mərhələsinə çıxmaq uğrunda idmançılar arasında davam edən gərgin mübarizə tamaşaçıların da marağına səbəb oldu. Zaman ötdükcə yarışın qalibləri müəyyən olunurdu. Kimliyindən asılı olmayaraq azarkeşlər yaxşı oyunçuları alqışlayırdılar. İlham Əliyevi, Süleyman Balakişiyevi və Ömər Ağayevi stolüstü tennis yarışının ən yaxşı oyunçularından hesab etmək olardı. Yarımfinalda 3-cü yer uğrunda mübarizədə Əkbər Ağayev üçüncü oyunda az xal fərqi ilə rəqibini üstələdi.

Finalda birinci yer uğrunda İlham Əliyev Yeganə Əlizadə ilə qarşılaşdı. Final oyunu maraqla keçdi. Mübarizənin gedişində bir çoxu İlham Əliyevin qalib gələcəyini düşünsələr də, nəticə fərqli oldu. 2-1 hesabı ilə Yeganə Əlizadə birinciliyin qalibi oldu. Yarışın baş hakiminin qərarı ilə 1-ci yerə Yeganə Əlizadə, 2-ci yerə İlham Əliyev, 3-cü yerə isə Əkbər Ağayev layiq görüldülər.

Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr edilmiş stolüstü tennis birinciliyi başa çatdı. Yarış başa çatdıqdan sonra qaliblərə komitə sədri Kərim Rzayevin adından fəxri fərmanlar və pul mükafatı təqdim olundu.

Aygün xanım onu da bildirdi ki, dövlət tədbirləri günündə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi sədrinin təşəbbüsü ilə həmkarlar arasında bu cür yarışların təşkil edilib keçirilməsi də nəzərdə tutulub.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində 2 Fevral - Gənclər Gününə həsr olunmuş "Azərbaycan gəncliyi: tərəqqiyə doğru gedən yol" adlı tədbirə ev sahibliyi etdi.

Tədbirdə ictimaiyyətin nümayəndələri, zabit və əsgərlər, kitabxana işçiləri, bir çox sahələrdə fəallıq göstərmiş gənclər, veteran və döyüşlərdə yaralananlar iştirak etdilər.

Tədbirdə giriş sözü ilə Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Elşad Pənahov çıxış etdi. O bildirdi ki, dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da haqlı olaraq öz taleyini gəncliyinə etibar edir. Əslində, xalqın xoşbəxt gələcəyi dövlətin təhlükəsizliyi, tərəqqisi, vətənpərvər və bacarıqlı nəslin yetişməsindən bilavasitə asılıdır. Bu gün böyük iftixar hissi ilə demək olar ki, müasir Azərbaycan gəncliyi dövlətçiliyimizin, mənəvi dəyərlərimizin, adət-ənənələrimizin keşiyində möhkəm dayanır. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Azərbaycan Silahlı Qüvvələrinin göstərdiyi qəhrəmanlıq dünyada böyük əks-səda doğurdu. Ehtiyatda olan polkovnik Elşad Pənahov vurğuladı ki, xalqımıza Zəfər gününü bəxş edənlərin böyük əksəriyyəti ordu gəncləri idi. Əminliyimizi ifadə edərək deyə bilərik ki, Azərbaycan dövlətçiliyi, onun gələcəyi etibarlı əllərdədir. Azad edilən torpaqlarımızda görülən bərpa-quruculuq işlərində gənclərimizin rolu böyük əhəmiyyət kəsb edir", - natiq çıxışını bitirdi.



Çıxış edənlər sırasında AMEA-nın dosenti Zəfər Kərimov söz aldı: "Gənclər cəmiyyətin dinamik qüvvəsidir və onların inkişafı bir millətin gələcəyini formalaşdırır. Hər bir dövrün inkişafı, dəyişməsi və tərəqqisi gənc nəslin ideyaları, yenilikçi baxışları və səyləri ilə mümkün olub. Azərbaycan gəncləri siyasətinin banisi Ümummilli Lider Heydər Əliyev daim gənclərə diqqət və qayğı ilə yanaşıb, onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə şərait yaradıb. Ulu Öndər qeyd edirdi ki, bütün gənclərin fəaliyyəti artıq keçmiş ideoloji tələblərdən, prinsiplərdən azaddır. Vətən müharibəsində gənclərimizin göstərdiyi şücaət, onların nə qədər cəsur, qəhrəman və vətənpərvər olduqlarını bir daha sübut etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında güclü Azərbaycan Ordusu tarix yazdı, xalqımızı qələbəyə qovuşdurdu. Gənclərimiz bu yolda ölümün gözünə dik baxdılar. Bu qələbə Azərbaycanın suverenliyinin, müstəqilliyinin dünyaya nümayiş etdirilməsi idi", - deyə Zəfər Kərimov bildirdi.

Gənclər Gününün yaranması tarixi və əhəmiyyəti haqqında danışan AHTM-in tədqiqatçı-elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov bildirdi ki, hakimiyyətə gəldiyi ilk günlərdən başlayaraq gənclər siyasəti ilə bağlı bir çox fərman və sərəncamlar imzalayan Ulu Öndər Heydər Əliyev gənclərin milli və vətənpərvər ruhda tərbiyəsinə xüsusi önəm vermişdir. Hələ ötən əsrin 70-ci illərində müdrik dövlət xadiminin təşəbbüsü ilə Azərbaycanda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılması gənc nəsildə vətənpərvərlik hisslərinin oyanmasına, gənclərimizin hərbi peşələrə marağının yüksəlməsinə zəmin yaratmış oldu. Gənc nəslin mütəşəkkil formada yetişməsi üçün 1994-cü il iyulun 26-da Ulu Öndər Gənclər və İdman Nazirliyini yaratdı. Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlərin həyata keçirilməsinə başlandı.

Tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov vurğuladı ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri bütün sahələrdə özlərini doğruldurlar. Prezident İlham Əliyevin gənclərin potensialının gerçəkləşməsinə, onların savadlı kadr kimi yetişməsinə, gənc ailələrin sosial təminatına yönələn tədbirləri dövlətimizin uzaqgörən siyasətinin göstəricisi kimi qiymətləndirilməlidir.

Möhtərəm Prezidentimiz tərəfindən imzalanmış sərəncamlar əsasında reallaşan "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın, habelə "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın nəticəsində minlərlə Azərbaycan gənci dünyanın ali məktəblərində təhsil almağa müvəffəq olmuşdur. Prezident İlham Əliyevin gənclərə dəstək yönündə verdiyi mühüm və əlamətdar qərarlardan biri də 2013-cü il 2 iyul tarixində ölkədə ilk dəfə "Gənclər üçün Prezident Mükafatı"nın təsis edilməsi oldu. Bu gün qətiyyətlə deyə bilərik ki, ölkə gəncləri Prezident İlham Əliyevin uğurla apardığı daxili və xarici kursu dəstəkləyir, bu siyasətin icrasında daim onun yanındadırlar, - Vahid İsmayılov fikrini tamamladı.

Sonda H.Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında vətənpərvərlik mahnıları səsləndirildi. Tədbir bədii hissə ilə yekunlaşdı.

**Sevinc QULİYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Suallar:**

**1. Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**

**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

**Mövzu: Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.**

### Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, Hərbi Andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını da əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, hərbi hissənin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur. Hərbi qulluqçu Hərbi Nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli; sayıq olmalı, hərbi və dövlət sirlərini ciddi surətdə saxlamalıdır. Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Vətən qarşısında müqəddəs borcunu dərindən dərk edərək hərbi biliyə dərindən yiyələnməli və daim döyüş hazırlığını təkmilləşdirməlidir. Cənubi Qafqazda strateji mövqeyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir.

Döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil silahlı toqquşmadır. O, hərbi hissə və bölmələrin taktiki fəaliyyətlərinin əsas forması olmaqla, şəxsi heyətin mənəvi və fiziki qüvvələrinin hərtərəfli sınağıdır. Onun uğuru əsasən döyüşü aparmaq üçün insanların cəsarətindən, dözümlülüyündən, mənəvi keyfiyyətlərindən, hazırlıq səviyyəsindən və texnikanın hazırlığından asılıdır. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O, öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır. 1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardığı bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də vahid komandanlığın olmaması, peşəkar kadr çatışmazlığı səbəbindən texnikaların döyüş imkanlarından döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə müstəqilliyin ilk günlərindən ordunun yaradılması prosesinin bilavasitə döyüşlər getdiyi dövrdə formalaşması, Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların, lazımi tədris bazasının olmaması və vaxt məhdudluğu idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin ağır günlərində ikinci dəfə hakimiyyətə gəlişi Silahlı Qüvvələrdə dəmir nizam-intizam yaratması, əsl ordu quruculuğuna start verməsi ilə nail olundu. Bunun məntiqi nəticəsi olaraq Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun qəhrəman döyüşçüləri məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirdilər və bir sıra yaşayış məntəqələrimizi yağılardan azad etdilər. Qısa zaman kəsiyində peşəkar, nizam-intizamlı, hərb sənətinin bütün incəliklərinə malik olan yüksək səviyyəli ordu yaradıldı. Azərbaycan hərbçiləri xarici ölkələrin, xüsusilə Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə başlayan gündən daim yanımızda olan, öz dəstəyini nümayiş etdirən dost-qardaş Türkiyənin yüksək səviyyəli ali hərbi məktəblərinə oxumağa, təcrübə keçməyə göndərildilər. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhval-ruhiyyəsinə malik olmasının nəticələri özünü 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda qısamüddətli döyüşlər zamanı işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirərək onu geri çəkilməyə məcbur etməklə göstərmişdir. 2020-ci ilin 27 sentyabr tarixində başlayan 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-da başlayıb 23 saat davam edən antiterror əməliyyatı isə işğalçı Ermənistan ordusunun birləşmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması və işğal altında qalmış ərazilərimizin azad edilməsi ilə nəticələndi. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Silahlı Qüvvələrimizdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

### Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi And içir. Hərbi And hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi Andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, Hərbi Nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli Liderimiz Heydər Əliyevin hərbi qulluqçularla görüşündə dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu Hərbi Nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının və müdafiə nazirinin 2026-cı tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də hərbi hissə və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hərbi hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır.

**Qeyd:** Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər müasir texnika və silahlara, sursata malikdir. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzuda hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmağı, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, Azərbaycan dövlətinin mənafeyini qorumağı, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərmək məsuliyyətlərini şüurlu surətdə dərk etmələri izah edilməlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Məişət

# "Vətənimizi qoruyan hərbçilər üçün çalışmaqdan böyük məmnunluq duyuruq"

Hərbi hissəyə ezam olunmaq mənim üçün həm maraqlı, həm də təəccüblü bir təcrübə idi. Nəzarət-buraxılış məntəqəsindən daxil olan anda hər şey diqqətlə nizamlanmış, ciddi, lakin, eyni zamanda, səmimi bir ritm içində idi. Asfalt yol boyunca hərbçilərin addım səsləri eşidilir, uzaqda səliqəli formada düzülmüş tank və digər texnika gözə dəyirdi. Havanın soyuğu və günəşin zəif işığı hərbi həyatın sərtliyini daha da vurğulayırdı.



Diqqətimizi çəkənlərdən biri də hərbi hissənin gündəlik fəaliyyətlərinin dəqiq plan üzrə aparılması idi. Hər küncdə bir fəaliyyət, hər işdə bir məsuliyyət vardı. Əsgərlər öz tapşırıqlarını icra edərkən ciddi, amma bir-birinə dəstək verən münasibətləri ilə fərqlənirdilər. Bu ritm və intizam, həmçinin orduda xidmətin həm fiziki, həm də mənəvi tərəflərinin nə qədər tələbkar olduğunu göstərirdi.

Mənim üçün xüsusilə maraqlı olan yerlərdən biri də camaşırxana idi.





Burada hər detalın önəmi böyükdür: hər bir dəsmal, hər bir forma, hər bir ütülənmiş köynək əsgərlərin gündəlik həyatının ayrılmaz hissəsini təşkil edir. Camaşırxananın ritmik fəaliyyəti, çalışanların diqqəti və əzmi mənim üçün ordunun görünməyən, amma vacib bir tərəfini açır. Elə bu məqamı da oxucularımızla bölüşmək istəyirəm.

"N" hərbi hissəsində camaşırxana ilə tanışlığa şərait yaradıldı. Burada işləyənlərin böyük əksəriyyəti qadınlardır və onlar hərbçilərə göstərdikləri diqqət və qayğı ilə fəxr edirlər. Hamam-camaşırxana kombinatının rəisi çavuş Rahil Babaşovla içəri daxil olanda, hər kəs öz vəzifəsini diqqətlə yerinə yetirirdi. Bəziləri daxil olan camaşır və dəsmalları çeşidləyir, digərləri onları yuyur, qalanlar isə yuyulmuş əşyaları qurudaraq ütüləməyə hazırlayırdılar. İş prosesi fasiləsiz davam edir, qurğu və avadanlıqlardan çıxan ritmik səslər otaqda dalğalanırdı. Beləcə hər kəs öz işinin öhdəsindən peşəkarlıqla gəlir, iş ləngimir, mehribanlıq isə öz sözünü deyirdi.

Çavuş Rahil Babaşov qeyd etdi ki, kollektivdə çalışan qadınlar işlərinin keyfiyyətinə xüsusi diqqət yetirirlər. "Hərbi hissələrdən və birləşmələrdən müntəzəm olaraq camaşırlar qəbul edilir. Məqsədimiz onların vaxtında və yüksək standartlara uyğun şəkildə yuyulması və hazırlanmasıdır. Camaşırxana ən müasir avadanlıqlarla təchiz olunub və biz bu qurğulardan səmərəli istifadə edərək işi həm sürətli, həm də keyfiyyətli şəkildə ütülənərək hərbi hissələrə qaytarılması yerinə yetiririk", - deyə çavuş Rahil Babaşov sözlərinə əlavə etdi.

İş prosesi əsasən dörd mərhələdən ibarətdir: əvvəlcə daxil olan camaşırlar çeşidlənir, sonra yuyulur, qurudulur və nəhayət, səliqəli şəkildə ütülənərək hərbi hissələrə qaytarılır. Bu iş, sözün əsl mənasında, həm ürəyi sevindirir, həm də gözə xoş görünür. Əməkdaşlar işlərini məsuliyyətlə yerinə yetirir və bunu böyük sevgi ilə edirlər. Onlar yaxşı anlayırlar ki, göstərdikləri keyfiyyətli xidmət sayəsində Vətənin müdafiəsində dayanan hərbi qulluqçularımızın rahatlığı təmin olunur. Bütün bu amillər isə işçilərə əlavə motivasiya verir.

Operatorlar Natavan İsmayılova, Nəzakət Qəniyeva, Rəna Abdullayeva, Azilə Cümşüdova və digər əməkdaşlar söhbətimizə qatıldılar.

"Əsgərlərə öz balam kimi yanaşıram və onlara xidmət etmək mənim üçün böyük qürur mənbəyidir", - deyə Natavan İsmayılova bildirdi. "Vətənimizi qoruyan hərbçilər üçün çalışmaqdan böyük məmnunluq duyuruq. Camaşırları, dəsmalları və digər əşyaları yuyub ütülədikcə düşünürük ki, bunlar hərbi qulluqçularımız tərəfindən istifadə olunacaq. Bu, işimizə daha çox diqqət və məsuliyyət qatır. Nəticədə isə hər zaman onların xoş sözlərinə layiq görülürük".

Həqiqətən də, bu zəhmətkeş qadınların əməyi tərifəlayiqdir. Bizim görüşümüz 2 Fevral - Azərbaycan Gəncləri Günü ərəfəsinə təsadüf etdiyindən bütün əsgərlərimizi, gənclərimizi və onların simasında ordumuzda xidmət edən hər kəsi təbrik edir, onlara cansağlığı və işlərində uğurlar arzulayırıq.

"N" hərbi hissəsində camaşırxanada çalışan bu zəhmətkeş qadınların əməyini gözardı etmək mümkün deyil. Onların diqqəti, məsuliyyəti və sevgisi sayəsində hərbçilərimiz gündəlik ehtiyaclarını rahatlıqla qarşılayır, xidmətlərini daha rahat və səmərəli yerinə yetirirlər. Hər bir ütülənmiş köynək, səliqəli dəsmal, sözün əsl mənasında, Vətənin müdafiəsində dayanan oğullarımızın rahatlığına xidmət edir. Bu zəhmət və fədakarlıq isə, əslində, ordumuzun gücünün və həmrəyliyinin görünməyən, amma əvəzsiz hissəsidir.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**









## Milli Müdafiə Universiteti xüsusi təyinatlı təhsil müəssisələrinə sənəd qəbulu elan edir

Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti cari ilin 31 may tarixinədək Heydər Əliyev adına Hərbi İnstituta, Hərbi Tibb Fakültəsinə, Bakı və Naxçıvan Hərbi Kolleclərinə, Heydər Əliyev adına və Cəmşid Naxçıvanski adına Hərbi Liseylərə elektron sənəd qəbulu elan edir.

Azərbaycan Respublikasının vətəndaşları istənilən bölgədən mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindən müraciət etməklə seçdiyi təhsil müəssisəsinə aid sənəd qəbulu portalına keçid edərək, müvafiq portaldakı "Sənədlər" hissəsindən proseslə bağlı məlumatları əldə edə bilər (qadın cinsli vətəndaşların qəbulu yalnız Heydər Əliyev adına Hərbi İnstituta, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinin "Hərbi həkim" və "Hərbi feldşer işi" ixtisaslarına nəzərdə tutulmuşdur).

Heydər Əliyev adına Hərbi İnstituta, Hərbi Tibb Fakültəsinə, Bakı və Naxçıvan Hərbi Kolleclərinə müraciət edənlər üçün tibbi müayinələrin keçirilməsi 01 aprel - 30 iyun, Hərbi liseylərə müraciət edən vətəndaşlar üçün 01 may - 30 iyun, seçimlərin aparılması isə 01 iyul - 31 avqust tarixlərində nəzərdə tutulur.

Qadın cinsli namizədlərin qəbulu Müdafiə Nazirliyinin müəyyən olunmuş kadr tələbatına və ixtisaslar üzrə plan yerlərinə uyğun olaraq həyata keçirilir.

Vətəndaşları maraqlandıran suallarla bağlı Milli Müdafiə Universitetinin çağrı mərkəzi - *0811 (iş günlərində saat 09:00-dan 17:30-dək) və admission@mmu.edu.az elektron poçt ünvanı fəaliyyət göstərir.

---

Leytenant Şahverdizadə İsrafil Cəmşid oğluna verilmiş MN № 0069105 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Miçman Aburazakov Əli Azad oğluna verilmiş SQ № 0027864 nömrəli miçmanın şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirzəyev Kənan Kazım oğluna verilmiş AD № 0063129 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Abbasov Samir Hüseyn oğluna verilmiş MV №141222 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Allahyarov Hüseyn İbad oğluna verilmiş MV №120692 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Qəhrəmanov Vüqar Elqar oğluna verilmiş MV №138369 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Redaktor | Telefon | Ünvanımız | Qəzetin hesabı | | Növbətçi | |
|---|---|---|---|---|---|---|
| mayor<br>Ceyhun CƏFƏRLİ | Müdafiə Nazirliyinin<br>Hərbi Nəşriyyatı üzrə növbətçi:<br>(012) 404-76-22 | Bakı şəhəri, Yasamal rayonu,<br>Şəfaət Mehdiyev küçəsi 144,<br>"Qızıl Şərq" hərbi şəhərciyi | 2 saylı Xəzinədarlıq<br>Kod: 200189<br>VÖEN: 1500444791 | "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Tədim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz. | Bəxtiyar ƏLİYEV | Lisenziya № 361<br>Sifariş № 24<br>Nüsxə 3621 |